# Biotibbdə əsas insan hüquqları prinsipləri üzrə hüquqşünaslar və səhiyyə mütəxəssisləri üçün onlayn kurs

## Ümumi məlumat və məqsəd

Biologiya və tibbin, o cümlədən yeni texnologiyaların inkişafı səhiyyə sahəsində çox böyük irəliləyişlərə səbəb olmuşdur. Lakin bu irəliləyişlər fərdə və onun hüquq və ləyaqətinin qorunmasına təsir edən etik məsələlərini qaldırır.

Bu etik və bir çox hallarda həmçinin hüquqi məsələlər tibbi müdaxiləyə razılıq, özünün sağlamlıq məlumatlarını öyrənmək hüququ, süni mayalanma ilə bağlı məsələlər, orqan və ya toxuma bağışlamaq və transplantasiya üçün müraciət və s. bu kimi müxtəlif sahələrdə meydana çıxır.

Avropa Şurasının insan hüquqlarının mühafizəsi sistemi bu yeniliyə müxtəlif yollarla cavab verir:

- İnsan Hüquqları və Biotibb üzrə Konvensiya (Oviedo Konvensiyası) 1997-ci ildə qəbul edilmi.dir. Onun müddəaları sonradan təkmilləşdirilmiş və spesifik məsələlərlə bağlı Əlavə Protokollarla tamamlanmışdır.
- Avropa İnsan Hüquqları Məhkəməsi Oviedo Konvensiyasına istinad edərək bu məsələlərin bəziləri ilə əlaqəli çoxlu sayda işə baxmışdır.
- Bioetika Komitəsinin və Avropa Şurasının digər komitələrinin/qurumlarının qəbul etdiyi hüquqi cəhətdən məcburi olmayan və beynəlxalq səviyyədə istinad kimi istifadə edilən çoxlu sayda digər sənədlər də mövcuddur.

Kurs bu məsələlərdən bəhs etmək və müvafiq sənədləri və vasitələri hüquqşünaslar və səhiyyə işçilərinə onların gündəlik işlərində üzləşdikləri vaxt təzyiqini nəzərə alacaq şəkildə çatdırmaq məqsədini daşıyır. Xüsusən də kursun məqsədi hüquqşünaslar və səhiyyə işçilərinə biotibb sahəsində işlərinə müvafiq əsas insan hüquqları prinsiplərini başa düşmələrinə yardım etməkdir.




Mövzular videolardan, interaktiv ekranlardan, bilikləri yoxlamaq üçün aparılan testlərdən, konkret halların təqdimatından və məntiqi çalışmalardan istifadə olunmaqla praktiki şəkildə təşkil edilir.

Kursa zəruri olan əsas konsept və anlayışların təriflərinin olduğu sözlük daxildir. Sözlüyə kurs vasitəsilə daxil olmaq mümkündür.

**Kurs 2018-ci ildə hazırlanıb.**

## Hədəf auditoriya

Bu kurs iki ilkin hədəf auditoriyaya malikdir:
- səhiyyə işçiləri və
- praktik hüquqşünaslar.

Kurs həmçinin tibbivə hüquq tələbələri, milli insan hüquqları qurumlarının işçiləri və biosəhiyyədə insan hüquqları sahəsi ilə maraqlanan qruplar və ya fərdlər kimi digər istifadəçi kateqoriyaları üçün də təlim vasitəsi kimi istifadə edilə bilər.

## Onlayn kurs (8 modul)

1. **Giriş** (təriflər, beynəlxalq hüquqi çərçivə, prinsiplər)
2. **Sərbəst və məlumatlı şəkildə razılıq** (sərbəst və məlumatlı şəkildə razılığın tərifi, rəddi və ya geri götürülməsi, elementləri və məhdudiyyətləri)
3. **Tibbi məxfilik və sağlamlıqla bağlı məlumatların qorunması** (sağlamlıqla bağlı məlumatların tərifi, hüquqi çərçivə, xəstənin razılığı, sağlamlıqla bağlı məlumatların məxfilik hüququnun məhdudiyyətləri, səhiyyə işçiləri tərəfindən məlumatların istifadəsi, xəstənin sağlamlıqla bağlı məlumatları əldə etmək hüququ)
4. **Dölün** və nəslin qorunması (dölün vəziyyəti haqqında əsas fikirlər, süni mayalanma, reproduktiv klonlaşdırmanın qadağan edilməsi, prenatal diaqnoz)
5. **Həyatın sonu** (giriş, hüquqi çərçivə, həyatın sonlandırılması vəziyyətlərində qərarvermə, müalicə razılığının geri götürülməsi, süni yolla su içmə və ya qidalanma, öncədən bildirilmiş istəklər, yüngülləşdirici baxım)
6. **Genetik test** (giriş, genetik testlərin müxtəlif növləri, məhdudiyyətlər, prinsiplər və qaydalar, genetik testlər və şəxsi məlumatlar, razılıqvermə qabiliyyəti olmayan şəxslərin qorunması, istifadəçiyə birbaşa testlər, genetik məlumatlar və sığorta məsələləri)
7. **Biotibbi tədqiqat** (tərif, hüquqi prinsiplər, etik prinsiplər, hüquqi çərçivə, məlumat və razılıq, təhlükəsizlik, tibbi müalicə və yeni irəliləyişlər, məlumat və məxfilik)
8. **İnsan orqan və toxumalarının transplantasiyası** (təriflər, etik və hüquqi məsələlər, hüquqi çərçivə, ümumi prinsiplər, canlı insandan orqan və toxumaların çıxarılması, ölmüş insandan orqan və toxumaların çıxarılması)

## Kursun hazırlanması və tətbiqi

Bu kurs Hüquqşünaslara İnsan Hüquqlarının Tədrisi üzrə Avropa Proqramı (HELP) və Avropa Şurasının Bioetika Şöbəsi tərəfindən birgə hazırlanmışdır. Öz dilinizdə kurs üçün e-tədris platformasını yoxlamağınızı xahiş edirik.

## Onlayn kursa çıxış

İngilis dilindəki model kursu HELP e-tədris platformasında http://help.elearning.ext.coe.int/ ünvanından pulsuz əldə edə bilərsiniz. Daxil olmaq üçün HELP hesabı açmalısınız (2 dəqiqə).